**Ramil Ruslan oğlu BABAYEV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
E-mail: rbtlvrp@gmail.com
ORCID ID: 0000-0002-5755-670X

# SOSİAL PROBLEMLƏRƏ YANAŞMADA OBYEKTİVİST VƏ SUBYEKTİVİST PARADİQMALARIN MÜQAYİSƏLİ TƏHLİLİ

**Xülasə:** Məqalənin giriş hissəsində sosiologiyada mövcud olan mikro və makro nəzəriyyələr bölgüsü verilmiş və bu nəzəriyyələrin obyektivist və subyektivist paradiqmalar daxilindəki mövqeləri göstərilmişdir. Aparılan müqayisəli təhlil, əsasən sosial problemlərə subyektivist baxışların, interpretivizmin, konstruktivizmin və relyativizmin tənqidi üzrə həyata keçirilmişdir. Məqalənin sonunda sosial problemlərin araşdırılması üçün pozitivist metodologiyanın daha əsaslı nəticələr hasil etməyə imkan verdiyi fikri müdafiə olunmuşdur.
**Açar sözlər:** elmi realizm, mikro-makro nəzəriyyələr, pozitivizm, konstruktivizm, interpretivizm

**UOT:** 316
**DOI:** doi.org/10.54414/mpbv2910

## Giriş

Cəmiyyətin necə başa düşülə biləcəyi sualı və bu cəmiyyət təsviri içində sosial problemlərin yerinin nə olması məsələsi sosiologiyanın elm kimi yarandığı ilk vaxtlardan bəri sosioloqların nəzəriyyələrinin cavablandırmağa çalışdığı əsas suallar olmuşdur. Yuxarıdakı ilk suala verilən cavablar çox müxtəlif olsa da, bu cavabları ehtiva edən nəzəriyyələri iki qrupa bölə bilərik.

Birinci qrupda yer alan nəzəriyyələr makro nəzəriyyələr adlanır və bu nəzəriyyələr konkret hadisələrin (keyslərin) və bu hadisələrin subyektlərinin ikinci planda olduğunu, daha əhəmiyyətli olanın bütövlükdə sosial sistem olduğunu irəli sürürlər. [9, s. 16] Sosiologiyadakı makro nəzəriyyələrə funksionalizmi və konflikt nəzəriyyələrini (marksizm, feminizm və s.) misal göstərə bilərik.

İkinci qrupda yer alan mikro nəzəriyyələr isə insanlararası gündəlik qarşılıqlı təsir, kiçik qruplar, icma səviyyəsi və s. üzərində fokuslanır. [12, s. 701] Buraya etnometodologiya, simvolik interaksionizm və fenomenologiyanı aid edə bilərik.

Sosial problemlər sosiologiyasında problemlərə nəzəri yanaşmalarda da mikro və makro nəzəriyyələr fərqli paradiqmalarda yer alırlar. Burada problemlərin fərdlərin və qrupların şüurundan və iradəsindən asılılığına münasibət əsasında nəzəriyyələr obyektivist və subyektivist nəzəriyyələrə ayrılır.

Obyektivist nəzəriyyələr insanların onları problem hesab edib-etməmələrindən asılı olmayaraq sosial problemlərin real destruktiv təsirli obyektiv fenomenlər kimi həmişə mövcud olduqları fikrini dəstəkləyən nəzəriyyələrdir. [14, s. 66]

Bu nəzəriyyələr daha çox sosial problemlərin miqyasına və kəmiyyət təsvirinə yönəlir, onların yaranma səbəbləri və necə inkişaf etdikləri ilə maraqlanır. Buraya Dürkheymin anomiya yanaşmasını, sosial disfunksiyaları təhlil edən funksionalist yanaşmanı və sosial qruplar

arasındakı ziddiyyətləri təhlil edən münaqişə əsaslı yanaşmaları aid edə bilərik.

Subyektivist yanaşmalar bir sosial fenomenin problem hesab edilməsi üçün onun kənar müşahidəçi tərəfindən yox, icma və ya qrupların özləri tərəfindən problem hesab olunmasının vacibliyini qeyd edən nəzəriyyələrdir. [15, s. 42-48] Bir problemin insanların şüurunda mövcud olmadığı halda, reallıqda da mövcud olmayacağı fikri bu paradiqmada yer alan nəzəriyyələrin bir çoxu tərəfindən vurğulanan fikirdir.

Bu paradiqmanın köklərini M. Veberin subyektiv tərifin və sosial qarşılıqlı təsirin əhəmiyyətini vurğuladığı sosial fəaliyyət nəzəriyyəsində tapmaq olar. Həmin ənənənin təmsilçisi olan nəzəriyyələrə misal kimi R. Fuller və R. Myersin "dəyər münaqişəsi" nəzəriyyəsini, G. Bekker və E. Lemertin "damğalanma" nəzəriyyəsini və J. Kitsuse və M. Spektorun "sosial konstruktivizm" nəzəriyyələrini göstərə bilərik. [14, s. 67]

**Əsas mətn**

İlk dəfə P. Berger və T. Lukman tərəfindən istifadə olunmuş "sosial konstruksiya" anlayışı insanların dünyaya məna yüklədiyini ifadə etmək üçün istifadə olunmuşdur və sosial konstruktivizmin yaradıcıları olan M. Spektor və J. Kitsuse nəzəriyyələrini yaradarkən bu anlayışa əsaslanmışdırlar. [13, s. 8] Sosial konstruktivizm nəzəriyyəsi problemlərin yalnız insan şüurunda mövcud olduğu, insan şüurunun problemləri inşa etdiyi fikrini irəli sürür. Bu baxışa əsasən, insanların dəyərlərinə, istəklərinə və özləri üçün məqsəd kimi gördükləri şeylərə uyğun olmayan sosial fenomenlər sosial problemlərdir. Və sosial problemin varlığından bəhs edə bilmək üçün konkret bir vəziyyətdən narazılığını ifadə edən və bununla bağlı tələblər irəli sürən insanların varlığı əsas şərtdir. [15, s. 52] Belədə hər hansı bir cəmiyyətin öz dəyərləri əsasında problem saydığı istənilən məsələ də sosial problem hesab olunmalıdır və hər hansı bir sosioloq obyektiv şərtlər saydığı amilləri əsas götürərək həmin məsələni sosial problem hesab etməyə bilməz.

Bu paradiqmalardan hansının sosial problemlərə nəzəri baxışlarda üstünlüyə malik olduğunu müəyyənləşdirmək üçün burada iki məsələnin qiymətləndirilməsi əsasında bir nəticəyə gəlməyə çalışacağıq: sosial problemlərə verilən təriflər və zaman və məkan kontekstində sosial problem hesab olunan məsələlərin dəyişməsi.

E. Rubinqton və M. Veinberqin tərifi sosial problemlərə verilən ən məşhur, ən çox istinad edilən təriflərdən biridir. Bu tərifə əsasən, sosial problem "onu dəyişdirmək üçün hərəkət etməyin lazım olduğunu iddia edən çoxlu sayda insanın dəyərləri ilə uyğun olmayan bir vəziyyət"dir. [14, s. 67]

Sosial problemin "Sosial mühitin şəraitindən irəli gələn və cəmiyyətin ən ali məqsəd hesab etdiyi hədəflərə (sosial ədalət, sosial tarazlıq, sosial sülh, sosial inkişaf, sosial rifah, sosial təhlükəsizlik və sosial inteqrasiya kimi) dərin mənfi təsir göstərən, həlli üçün siyasi alətlərdən istifadə edilməli olan bir vəziyyət" [8, s. 2] və yaxud da "Cəmiyyətin öz qavrayışında ideal həyat, sosial tarazlıq və rifah təriflərinin tərkibində yer vermədiyi, cəmiyyətin bu gözləntilərini və nizamını pozan hər problem" [10, s. 20-21] kimi təriflərinə nəzər saldıqda görmək mümkündür ki, sosial problemlərin nəzəri təhlilini aparan tədqiqatçılar arasında 1970-ci illərdən etibarən güclənən subyektivist paradiqmanın təsiri olduqca dərindir.

Yuxarıda qeyd etdiyimiz, sosial problem hesab olunan məsələlərin zaman və məkan kontekstində dəyişməsi məsələsinə gəldikdə qeyd etmək lazımdır ki, cəmiyyətlərin sosial problem kimi gördüyü sosial fenomenlərin dairəsi mədəniyyətdən mədəniyyətə,

həmçinin bir mədəniyyət daxilində vaxt keçdikcə dəyişikliklərə məruz qalır. İnkişafla birlikdə yeni problemlər meydana çıxır, yaxud da bəzi məsələlər artıq sosial problem hesab olunmamağa başlayır. Bununla bağlı olaraq, bütün cəmiyyətlərin problem hesab etdiyi məsələlərin mövcud olub-olmamasına nəzər salmaq subyektivist və obyektivist paradiqmaların müqayisəli təhlili üçün olduqca faydalı bir metoddur.

Qeyd etdiyimiz mövzunu yoxsulluğa münasibət nümunəsi əsasında izah etməyə çalışaq. Yoxsulluğu obyektiv sosial vəziyyət kimi araşdırmağa çalışan bir tədqiqatçı hər hansı bir cəmiyyətdə onun səbəb və nəticələri və miqyası üzərində fokuslana və bunun ardınca problemin aradan qaldırılması yolları ilə bağlı mülahizələrini açıqlaya bilər. Məsələyə sosial konstruktivizm nəzəriyyəsi mövqeyindən subyektivist kimi yanaşan tədqiqatçı isə, əvvəlcə araşdırmasının obyekti olan cəmiyyətdə yoxsulluğa münasibətin necə olmasına nəzər yetirir. Bu tədqiqatçı araşdırdığı cəmiyyətdə yoxsulluğun insanları narahat edən məsələ sayılmadığını görsə, belə bir problemin olmadığı qənaətinə gələ bilər. Yəni, belə yanaşan tədqiqatçının nöqteyi-nəzərindən yoxsulluğun özündə onu sosial problemə çevirən heç nə yoxdur və yoxsulluq sosial nizamın bir parçası ola bilər.

Bu məqamda subyektivist yanaşmanı aydın başa düşmək üçün "dəyərlər" və "qurbanı günahlandırma" mövzularına da qısaca toxunmaq lazımdır. Bir cəmiyyətdə sosial bərabərsizlik və gəlir bərabərsizliyi ilə bağlı hakim baxışların necəliyi həmin cəmiyyətin problemlərə yanaşmasının necə olacağına təsir göstərən amillərdən biridir. Həyat standartlarının aşağılığına görə yoxsul insanların özlərinin günahkar olduğu, hətta yoxsul insanların tənbəl olduqları kimi fikirlərin geniş yayıldığı cəmiyyətlərdə yoxsulluq sosial strukturun və iqtisadi sistemin quruluşundan irəli gələn hal kimi deyil, şəxsi müvəffəqiyyətsizlik kimi qiymətləndirilə bilər. Məsələn, Villiam Rayan Amerika cəmiyyətində bunun hakim baxış olduğunu qeyd edir. [19] Buradan belə nəticəyə gələ bilərik ki, insanlar dəyərləri ilə ziddiyyət təşkil etməyən halları sosial problem kimi görməməyə meyllidirlər və bir sosial hadisə və ya proses onlar tərəfindən dəyərləri üçün təhlükə hesab olunduqda həmin hadisə və ya prosesi sosial problem kimi qiymətləndirirlər.

Burada obyektivist baxışı cəmiyyətin tərəqqisini təmin etmək baxımından əhəmiyyətli vasitə hesab etməliyik. Çünki cəmiyyətin ayrı-ayrı qruplarına qarşı diskriminasiyaların aradan qaldırılması baxımından obyektivist tənqidin rolu əvəzolunmazdır. Məsələn, dəyərlər əsasında yanaşdıqda kasta sistemi daxilindəki insanlar üçün o sistemin mövcudluğu uzun əsrlər boyu diskriminasiya hesab edilməyib. Və yaxud da azyaşlılarla nikahı, irqçiliyi, gender diskriminasiyasını, uşaqların tərbiyəsində fiziki zorakılığın tətbiqini və s. bir çox cəmiyyətlərin hakim dəyərləri tarix boyu sosial problem kimi görməyib. Relyativist və subyektivist yanaşmaların tətbiqi halında bu kimi problemlərin aradan qalxması üçün xüsusi səy göstərilməyəcək və nəticədə onlar daha uzun müddət ərzində mövcudluqlarını qorumağa davam edəcəklər.

Obyektivist baxışın tətbiqi ilə sosial problemlərin aradan qaldırılması fikri üçün nəzəri əsası obyektivist paradiqma içində yer alan funksionalizm və münaqişə nəzəriyyələri təşkil edə bilər. Münaqişə nəzəriyyələri cəmiyyətin strukturunun yenidən qurulması əsasında sosial problemlərin aradan qaldırılması yolunu təklif edirlər. [1] Funksionalizm isə sosial nizamın qorunması, lakin disfunksiyaların aradan qaldırılması əsasında sosial

problemlərin tədrici həllini irəli sürür. Funksionalist yanaşma sosial stabilliyi ən vacib amil hesab edir və bunun təmin olunma vasitələri kimi sosiallaşma və sosial inteqrasiyadan bəhs edir. [19] Məsələyə bu mövqedən yanaşdıqda, kəskin və sürətli gedən dəyişikliklər sosial stabilliyi sarsıda biləcəyi üçün tədrici sosial islahatlarla sosial problemlərin aradan qaldırılması daha səmərəli yol kimi ifadə olunur. Məsələn, bu yanaşmanı sənaye inqilabına tətbiq etsək, sənaye inqilabının funksional olduğunu, lakin böyük insan kütlələrini yoxsul həyata da məruz qoyduğu üçün eyni zamanda disfunksiyanın daşıyıcısı olduğunu demək mümkündür. [10, s. 20-21] Funksionalist baxışda bu disfunksiyanı aradan qaldırmaq üçün həll yolu sosial islahatların mərhələli şəkildə tətbiq olunmasıdır.

Obyektivist və subyektivist paradiqmaların müqayisəli təhlilini yuxarıda qeyd etdiyimiz "qurbanı günahlandırma" kontekstində də apara bilərik. İşsizlik və təhsildə müvəffəqiyyətsizlik keysləri üzrə qiymətləndirmədə görmək mümkündür ki, subyektivist paradiqmanın təmsilçiləri dəyərlərin mühakimə edilməsi ehtimalından uzaq ola bilmək üçün konformist mövqedə dururlar.

C. R. Mills işsizliklə bağlı qeyd edir ki, əgər bir cəmiyyətdə cəmi bir neçə nəfər işsiz olsaydı, bunu onların tənbəlliyi ilə izah edərək, haqqında şəxsi problem kimi bəhs etmək mümkün ola bilərdi. Amma bir cəmiyyətdə yüz minlərlə, milyonlarla işsiz insanın var olduğu bir vəziyyətdə işsizliyi şəxsi problem kimi görmək və sosial problem hesab etməmək adekvat münasibət kimi görünmür. [19] İnsanlar işsizliyin sosial problem olduğunu iqtisadi böhranlar dövründə daha aydın görürlər. Həmin yüz minlərin sayı daha böyük rəqəmlərlə ifadə olunduqda və hər kəs öz ətrafındakı insanlar vasitəsilə işsizliyin miqyasını birbaşa müşahidə etdikdə, işsizliyi sosial problem kimi qəbul etməyə başlayırlar.

"Qurbanı günahlandırma" kontekstində şəhərətrafı bölgələrdə yaşayan ailələrdəki uşaqların təhsildə nisbi müvəffəqiyyətsizliyi keysinə nəzər salaq. Deyilə bilər ki, burada problem həmin uşaqların valideynlərindən qaynaqlanır. Onlar öz üzərlərində lazımı səviyyədə məsuliyyət hiss edərək uşaqlarının müvəffəqiyyətini təşviq etmədikləri üçün bu, uşaqların təhsildə müvəffəqiyyətsizlik yaşamalarına səbəb olur. [19] Məsələyə bu mövqedən yanaşdıqda həmin uşaqların yoxsul ailələrdə ailə təsərrüfatına töhfə vermək üçün günün böyük hissəsini fiziki əmək sərf edərək keçirdiklərini, onların mümkün dərslik çatışmazlığı problemlərini, yüksək səriştəli müəllimlərin həmin ərazilərdə işləmək istəmədikləri üçün ciddi müəllim çatışmazlığı problemi ilə qarşılaşdıqlarını, kompüter otaqları və laboratoriyaların olmamasını və s. nəzərə almayan birtərəfli yanaşmanı ifadə etmiş oluruq.

İşsizliyi və ya qeyd etdiyimiz təhsildə müvəffəqiyyətsizlik məsələsini sosial problem kimi görmək əvəzinə şəxsi problem kimi görmək meylinin mövcud olduğu cəmiyyətlərdə işsizliyi və təhsildə müvəffəqiyyətsizliyi sosial problem kimi tədqiq etməyən subyektivist paradiqma təmsilçiləri, təbii olaraq bu məsələlərlə bağlı sosial və iqtisadi sistemə qarşı da hər hansı bir tənqidi mövqe ortaya qoymurlar.

Sosial problemin təyin olunmasından sonrakı mərhələ onun araşdırılmasında hansı metoddan istifadə ediləcəyinə qərar verilməsidir. Bu məsələdə də qeyd etdiyimiz iki paradiqma fərqli metodologiyalardan çıxış edir. Qeyd etmək lazımdır ki, metodologiya məsələsi sosiologiyanın ilk dövrlərindən bəri onun ən çox müzakirə

olunan mövzularından biri olmuşdur. Sosiologiyanın metodu ilə bağlı əksər ədəbiyyatlarda qarşımıza çıxan ilk fikir budur ki, sosiologiyanın elm kimi tanındığı ilkin dövrün sosioloqları təbiət elmlərinin metodları ilə cəmiyyətin araşdırılmasının və izah edilməsinin mümkünlüyünü vurğulayırdılar. Sosiologiyanın banisi sayılan Kont özü də "sosial fizika" adlandırdığı sosiologiyanı pozitiv elm sayırdı. [3, s. 2192] Bu pozitivist elmi metodologiya fiziki dünyada olduğu kimi sosial aləmin də qanunabənzər fundamental xassələri olduğunu və bu xassələrin həmişə işlək olduğunu irəli sürür. Bu baxışa görə sosial tədqiqatların məqsədi də sosial aləmin qeyd etdiyimiz xassələrini üzə çıxarmaq və onları nəzəri əsasda izah etmək olmalıdır. Pozitivizmə əsasən, bilik onun yeganə mənbəyi olan müşahidə və təcrübəyə əsaslanmalı, bilik yaradılarkən səbəb-nəticə əlaqələri empirik şəkildə təsdiqlənməli, mahiyyəti anlamağa və şərh etməyə cəhd edilməməlidir. [18]

M. Veberdən başlamaqla sonrakı yanaşmalar bunun alternativi kimi sosiologiyanın özünəməxsus metodunun olduğunu və təbiət elmlərindəki kimi dəyişənlərin ölçülməsinin cəmiyyətə tətbiq olunmasının kifayət etmədiyini bildirən fərqli mövqedən çıxış edirdilər. [4, s. 819] Bu yanaşmalar sosiologiyanın şərh etməyə çalışmalı olduğunu, şərhlərin əlaqələri üzə çıxarmaqdan daha vacib olduğunu və əlaqələri göstərməklə kifayətlənməyib onlarla bağlı gümanlar da irəli sürməyin əhəmiyyətini vurğulayırdılar. Bu baxış subyektivist paradiqma nəzəriyyələrinin metodologiyalarının da təkan aldıqları mənbədir.

İlk yanaşma elmin vahidliyini və təbiət elmləri ilə cəmiyyət elmlərinin eyni metodologiya ilə hərəkət etməli olduğu fikrini müdafiə edirsə, ikinci interpretivist yanaşma isə təbii reallıqla ictimai reallığı ayıraraq fərqli metodologiyalara sahib olan iki cür elmin mövcud olduğunu irəli sürür. İkinci yanaşma fərdlərin və ya daha kiçik qrupların ətraflı müşahidə edilməsi və onlarla aparılan müzakirələr vasitəsilə dərin keyfiyyət təhlilinin aparılması üsulunu əsas metod kimi təklif edir. [11, s. 11] Pozitivist paradiqma üçün tədqiqatın əvvəlində nəzəriyyənin və fərziyyənin olması zərurət sayılır və belədə tədqiqat nəzəriyyəni rəhbər tutur. Anti-pozitivist keyfiyyət əsaslı tədqiqatda isə nəzəriyyə və fərziyyə tədqiqatın yekununda meydana çıxır. [17]

Sosial problemlərin təhlili üçün obyektivist paradiqma daxilində pozitivist və interpretivist metodologiyaların hər ikisindən istifadə etmək mümkündür. Lakin bu da qeyd olunmalıdır ki, obyektivist paradiqma daha çox pozitivist ənənənin nümayəndələri tərəfindən təmsil olunur. İnterpretivist metodu isə girişdə qeyd etdiyimiz mikro səviyyəli nəzəriyyələrə xas olan metod hesab edə bilərik.

Pozitivist yanaşma ilə obyektivist paradiqmanı birləşdirən xüsusiyyət onların hər ikisinin obyekti subyektdən tam müstəqil gerçəkliyə malik bir fenomen kimi qiymətləndirmələridir. Bu iki sosioloji məhfumun hər ikisi sosiologiyada sosioloji (elmi) realizm cərəyanının tərkib hissələridir. Onların hər ikisi obyektiv olanı (özlərinin xaricində olan, başa düşülə və təsvir oluna bilən sosial reallığı və ya insanların onlar barəsində nə düşündüyündən asılı olmayaraq maddi dünyanın bir parçası olaraq mövcud olanı) tapmağa çalışdığı üçün, subyektin şərhlərinə mümkün qədər az yer ayırdıqları üçün obyektivist paradiqma çərçivəsində müəyyənləşdirilmiş problemlərin pozitivist əsasda araşdırılması daha məqsədəuyğun görünür.

Təbiət elmlərinin metodologiyasını əxz etsələr belə, pozitivist tədqiqatlar mütləq qanunları aşkara çıxarmaq iddiası daşımır və ehtimala əsaslanaraq fəaliyyət göstərirlər. Yəni, sosioloqun qənaətinin elmi sayılması üçün onun cəmiyyətdəki hər bir insanın necə davranacağını dəqiq şəkildə açıqlaması tələbi mövcud ola bilməz. İnsanların təqribən nə qədərinin müəyyən şərtlərin ödənildiyi konkret bir vəziyyətdə necə davranacaqlarını sosial həyatla bağlı qanunlar əsasında proqnozlaşdırmaq isə pozitivist baxışın əsas xüsusiyyətlərindən biridir. [6, s. 2]

Sosial problemlərin araşdırılmasında pozitivist epistemologiyanın tətbiqi operasionalizasiya ilə başlayır. Operasionalizasiya dedikdə, nəzəri anlayışların tərkib hissələrinə ayrılaraq sadə ifadələrlə izah edilməsini başa düşə bilərik. Sosiologiyada mövcud olan anlayışların bir çoxu mücərrəd anlayışlardır, pozitivizm isə fiziki dünyanın izahı üzərində qurulan elm fəlsəfəsidir. Belə olan halda rol, struktur, təbəqələşmə kimi anlayışların operasionalizasiyası onların obyektiv reallıq olduğunun, sosioloqun təxəyyülünün məhsulu olan əsassız düşüncələr olmadığının əsaslandırılmasıdır. [5, s. 2466] Ölçmə və müşahidənin əsaslı olması üçün operasionalizasiyanın düzgün həyata keçirilməsi vacibdir. Operasionalizasiya və mərhələlərin ardıcıllığı o qədər aydın təsvir edilməlidir ki, başqa istənilən bir şəxs həmin ardıcıllığı təkrarlamaqla eyni və ya əvvəlkinə yaxın nəticələrə çıxa bilsin.

Pozitivizmə əsaslanan tədqiqatlar və nəzəri konsepsiyalar formallıq tələbini ödəməlidir. Formallıq tələbi dedikdə təkcə kəmiyyət tədqiqatı ilə əsaslandırılması və yaxud riyazi dildə izah edilməsi nəzərdə tutulmur. [3, s. 2192] Gündəlik danışıq dili vasitəsilə də anlayışların və onlar arasındakı əlaqənin aydın izahının verilməsi mümkündür. Sosial tədqiqatda və ya onunla bağlı nəzəri konsepsiyada nəyin yer aldığı və nəyin yer almadığı çox aydın sərhədlər çəkilərək izah olunmalıdır. Pozitivist metodologiya mümkün qədər azla mümkün qədər çoxu izah etməyə çalışır. Yəni, pozitivist sosial tədqiqatlarda məqsəd mümkün qədər sadə analitik modellə və ya mümkün qədər az sayda prinsiplə sosial reallığın mümkün qədər çox hissəsini izah etməyə çalışmaqdır. Ernst Maçın da qeyd etdiyi kimi, ən yaxşı nəzəriyyə minimum sayda dəyişəndən istifadə edən, əldəki hissi dataya əsaslanan və müşahidə olunmayanın üzərində spekulyasiya etməyən nəzəriyyədir. [3, s. 2194] Və son olaraq da, pozitivizmə əsaslanaraq qurulmuş sosial tədqiqat nəzəri müddəaları hər hansı bir sosioloji metodla sınaqdan keçirməyə çalışmalıdır ki, bu da empirik təsdiq adlanır. [5, s. 2468] Bu sınaqdan keçirmə nəticəsində əvvəlki nəzəri müddəalar ya təsdiq olunur, ya dəyişdirilir, ya da ümumiyyətlə rədd olunur.

Pozitivist yanaşmanı mənimsəyən tədqiqatçılar tədqiqatları üçün əksər hallarda kəmiyyət metodlarını seçirlər. [16] Onlar arasında hansı metoda üstünlük verilməli olduğu məsələsinə gəldikdə, təbiət elmlərində geniş tətbiq olunan sınaqlar həm etik səbəblərə görə, həm də eyni dəyişənə insanların fərqli formalarda reaksiya verə bildiklərinə görə bir çox tədqiqatlarda əlverişli olmur. Lazarsfeld və Lundberq tərəfindən kəmiyyət əsaslı sosial sorğuların 1950-ci illərdə ustalıqla tətbiq olunmasından etibarən sorğular və onların statistik təhlili sosial tədqiqatların əsas metoduna çevrilib. [4, s. 821] Pozitivist tədqiqatlarda köməkçi elmi metod kimi rəsmi statistik məlumatlardan istifadə etməyə üstünlük verilir.

Kəmiyyət və keyfiyyət araşdırmalarının eyni tədqiqatda istifadə olunması imkanları ilə bağlı isə üç mövqe qarşımıza çıxır. Puristlər adlanan birinci qrup bu metodların fərqli ontologiya və qneseologiyanın daşıyıcıları olduğu üçün eyni tədqiqatda istifadə oluna bilməyəcəyi, eklektiklər adlanan ikinci qrup vəziyyətə uyğun olaraq bu metodları ardıcıl və hətta birlikdə də tətbiq etməyin mümkün olduğu, praqmatiklər adlanan üçüncü qrup isə bu metodlar arasında heç bir ziddiyyətin mövcud olmadığı fikrini müdafiə edirlər. [7, s. 118-119]

Pozitivist əsasda qurulmuş tədqiqatın uğurlu olması üçün dəyişənlərin təyin olunması da vacib şərtlərdən biridir. Dəyişən kimi yaşı, təhsil səviyyəsini, ailə vəziyyətini və s. nümunə çəkə bilərik. Məsələn, təhsil səviyyəsi dedikdə, bu, ibtidaidən aliyə doğru dəyişir. Bu növ tədqiqatlarda "müstəqil" və "asılı" dəyişənlər də ayrılmalıdır. X müstəqil, Y isə asılı dəyişən olduğu halda, pozitivist əsaslı sosioloji tədqiqat X-ın təmsil etdiyi hadisə ilə Y-in təmsil etdiyi arasındakı səbəbiyyət əlaqəsini aşkar etməyə çalışacaq. [2, s. 56-57]

**Nəticə**

Yekunda, obyektivist paradiqma daxilində pozitivist əsasda qurulmuş istənilən tədqiqatın ödəməli olduğu bir şərt kimi "dəyərlərdən azad olma" şərtini də qeyd etməliyik. Dəyərlər sosial tədqiqatçının hansı mövzunu seçəcəyinin təyin olunmasında rol oynaya bilər. Lakin sosial tədqiqatçı bilməlidir ki, bir sosial problem onun tərəfindən tədqiqat obyekti kimi seçilən andan etibarən o, dəyərlərini və inanclarını tədqiqatdan kənar tutmalıdır, çünki əks halda bu, əldə edilən nəticələrin necəliyinə təsir göstərə bilər və belədə də tədqiqat nəticələrinin subyektivliyi problemi meydana çıxar. Yalnız prosesin aktiv bir parçası olmaqdan, prosesə hər hansı bir formada təsir göstərməkdən yayınan neytral mövqenin tətbiqi halında tədqiqatın obyektiv olması şərti ödənilə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bell K., (2013), "Conflict-theory" In Open Education Sociology Dictionary: https://sociologydictionary.org/conflict-theory/
2. Norma R. A., (1991), The Methodologies of Positivism and Marxism: A Sociological Debate. Palgrave Macmillan, London.
3. Rhonda M., Edgar F. B., (2000), Encyclopedia of Sociology. Second Edition. Volume 3.
4. Rhonda M., Edgar F. B., (2000), Encyclopedia of Sociology. Second Edition. Volume 2.
5. Rhonda M., Edgar F. B., (2000), Encyclopedia of Sociology. Second Edition. Volume 4.
6. Bingöl Üniversitesi sosyoloji notları. (2020), Sosyolojik yöntemde klasik dönem tartışmaları.
7. Güler S. A., Can A., Nuray G. T., Banu Y. T., (2009), Pozitivist ve postpozitivist paradigmalar çerçevesinde metodoloji tartışmalarının yönetim ve pazarlama alanlarına yansımaları. H.Ü. İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, Cilt 27, Sayı 1.
8. Güven S., (1996), Türkiye'de Sosyal Sorunlar ve Sosyal Politikalar, Ezgi Kitabevi, Bursa.
9. İbrahim Y., (2014), Bir Sentez Girişimi Olarak Gerçekliğin Sosyal İnşası. Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi.
10. Orhan K., (2020), Sosyal Sorunlar. İstanbul üniversitesi açık ve uzaktan eğitim fakültesi.

11. Taş K. (2018), Sosyolojik metodolojinin ontolojik ve epistemolojik temelleri. Turkish Studies.

12. Yücedağ İ., Sarsılmaz F., (2018), Gerçekliği Farklı Düzlemlerde Geri Kazanmak: Eleştirel Realizm. Journal of History Culture and Art Research.

13. Polach D., (2004), Sotsial'nye problemy s konstruktsionistskoi tochki zreniya. Zhurnal issledovanii sotsial'noi politiki. (In Russ)

14. Simonova T. M., (2009), Teoreticheskie aspekty izucheniya sotsial'nykh problem. Sotsiologicheskie issledovaniya, № 8. (In Russ)

15. Fomina I. V., Tishchenko V. P., (2014), Sotsial'nye problemy. Uchebno-metodicheskoe posobie dlya vuzov. (In Russ) https://rucont.ru/file.ashx?guid=a6b43475-1aad-4b97-8fac-1c564a49554d

16. Positivism: Definition, Theory, Research & Examples: https://www.studysmarter.us/explanations/social-studies/theories-and-methods/positivism/

17. Research Methods: Positivism v.s. Postpositivism: https://reprac.co.nz/research-methods-positivism-v-s-postpositivism-perspectives/

18. Social Research Glossary – Positivism: https://www.qualityresearchinternational.com/socialresearch/positivism.htm

19. Sociological Perspectives on Social Problems: https://open.lib.umn.edu/socialproblems/chapter/1-2-sociological-perspectives-on-social-problems/

**Ramil Ruslan BABAEV**
*Institute of Philosophy and Sociology of ANAS*
E-mail: rbtlvrp@gmail.com

## COMPARATIVE ANALYSIS OF OBJECTIVIST AND SUBJECTIVIST PARADIGMS IN THE APPROACH TO SOCIAL PROBLEMS

**Summary:** The introductory part of the article distinguishes the micro and macro theories existing in sociology and shows the positions of these theories within the objectivist and subjectivist paradigms. The comparative analysis was mainly based on criticism of subjectivist views on social problems, interpretativism, constructivism and relativism. At the end of the article, it is argued that the positivist methodology for the study of social problems allows to produce more reasonable results.
**Keywords:** scientific realism, micro-macro theories, positivism, constructivism, interpretivism

**Рамиль Руслан оглы Бабаев**
*Институт Философии и Социологии НАНА*
E-mail: rbtlvrp@gmail.com

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ОБЪЕКТИВИСТСКОЙ И СУБЪЕКТИВИСТСКОЙ ПАРАДИГМ В ПОДХОДЕ К СОЦИАЛЬНЫМ ПРОБЛЕМАМ

**Резюме:** Во вводной части статьи проводится разграничение существующих в социологии микро- и макротеорий и показаны позиции этих теорий в рамках объективистской и

субъективистской парадигм. Сравнительный анализ основывался главным образом на критике субъективистских взглядов на социальные проблемы, интерпретативизме, конструктивизме и релятивизме. В конце статьи утверждается, что позитивистская методология исследования социальных проблем позволяет получать более обоснованные результаты.
**Ключевые слова:** научный реализм, микро-макротеории, позитивизм, конструктивизм, интерпретативизм

**Daxil olub:** 11.02.2022